**O gecə**
**(poemadan parçalar)**

Tanklar keçdi o gecə
Sözdən, baxışdan, üzdən,
Ağ, isti yatağından,
Çörəkli süfrəmizdən,
Laylalardan, nağıldan,
Yaxşı gündən, pis gündən.
Yerişimin üstündən,
Vüqarımın üstündən
Tanklar keçdi ogecə,
Yurdumun yaddaşından,
Zamanın tozu hopmuş
Torpağından, daşından
Tanklar keçdi o gecə,
Çaşıb qaldı iman, din,
Ağlın, fikrin, məntiqin
Üstündə gəzdi tanklar.
Güllə kordu, özü də
Bilmir, yükü nə yükdü.
Bilmir, yoluna çıxan
Uşaqdı, ya böyükdü.
Kor güllə, kor əlində,
Hökm nankor əlində.
İndi gəl yaşa görüm
Ağlı korlar əlində.

***

Ağdaşın bir pöhrəsi
Yamyaşıl bir budağı,
Doğmaya arxa, ümid,
Düşmənlərə göz dağı.
Hələ evdə uşağı,
Evdən yola çıxanda
Bir küçəyə işıqdı.
Hələ çox adam bilmir
Müşfiq kimə aşiqdi,
Müşfiqə kim aşiqdi.
İncə bel, enli kürək,
Qara tel, çatma qaşlı,
Eh, bu yaş elə yaşdı..
Bu yaşda hər bir oğul
Bala bir qızıl quşdu,
Müşfiq Ağdaşdan uçdu,
Anası arxasınca
Boylandı gülə-gülə.
O Bakıya gedirdi
Qardaşı Xəzərgilə.

***

Bakıda gecə yarı
Sudan, yerdən, havadan,
Yağdı güllə yağmuru.
Yağır işıldaquşlar.
Dönüb qurğuşun olub
Göy üzündə yağışlar.
Mat-məətəl qalıbdı
Yollar, damlar, adamlar,
Yolda yiyəsiz ayaq,
Ölüb qalmış addımlar.
Tanklar, toplar, tırtırlar
Kimi gəldi tapdayır,
Hara gəldi atırlar.
Hərbin acgöz maşını
Dörd tərəfdən çeynəyir
Torpağımı, daşımı
Doymaz bir timsah kimi.
Mərmi olub partlayır
Erməniylə, rusların
Türklərə olan kini.
Pəncərələr kor olur,
Küçələr sürünürdü.
Evlərin işıqları
Ümid kimi sönürdü.
Bakının harayına
Müşfiq yola yüyürdü.

Tində avtomat hürdü.
Onu bir od yaladı,
Onu quduz daladı.
Qızıl quş balasıydı
O qanad çalasıydı,
Körpə qanadı sındı.
Başı çiyninə düşdü
Gözündə işıq söndü...

***

O gecə göy üzündən
Ruhlar torpağa endi.
Müşfiq də geri döndü,
Yenə də güllələndi.
Taleyin oynuna bax...
Bu taledi, yoxsa baxt?!
Ürək yanıb-tökülür,
Ağrıdan adam gülür.
Bir əsrdə iki yol
Cahana doğulasan,
Cavam ikən iki yol
Qanında boğulasan.
O zaman şair idi
Müşfiq – nəğməli şair,
Bir çoşqun, dəli şair.
Şair olan ölürdü,
Qanlı 37-də.
Dövram adam yeyirdi,
O Müşfiqi yedi də.
Indi 90-cı il,
Dövran o dövran deyil.
Müşfiq də şair deyil.
Dəli-dolu oğlandı!
Bəs bu nədi, nə qandı?!
Bu, niyə güllələndi...
Başa düşürəm indi.
Bəhanədi sənəti,
Bəhanədi adları.
Başa düşün, ay canım,
Qeyrətli övladları
yadlar öldürməyə
həmişə fürsət gəzir.
Yazıq Azərbaycanım,
Anam Azərbaycanım.

Qoca Fikrət. O gecə : poemadan parçalar // Ulduz. - 1991. - № 1. – S.15-16.